**“Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ərazisində Mütəşəkkil cinayətkarlıq və digər təhlükəli cinayət növləri ilə mübarizənin əlaqələndirilməsi üzrə Büronun tərkibində Mərkəzi Asiya regionunda narkotiklərin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizənin əlaqələndirilməsi üzrə struktur bölməsinin və onun regional əməliyyat qrupunun yaradılması barədə” Qərarın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. “Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ərazisində Mütəşəkkil cinayətkarlıq və digər təhlükəli cinayət növləri ilə mübarizənin əlaqələndirilməsi üzrə Büronun tərkibində Mərkəzi Asiya regionunda narkotiklərin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizənin əlaqələndiril məsi üzrə struktur bölməsinin və onun regional əməliyyat qrupunun yaradılması barədə” 2004-cü il sentyabrın 16-da Astana şəhərində imzalanmış Qərar Azərbaycan Respublikasının ona dair qeyd-şərti ilə (qeyd-şərtin mətni əlavə olunur) **təsdiq edilsin.**

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 may 2006-cı il
№ 115-IIIQ

**Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ərazisində Mütəşəkkil cinayətkarlıq və digər təhlükəli cinayət növləri ilə mübarizənin əlaqələndirilməsi üzrə Büronun tərkibində Mərkəzi Asiya regionunda narkotiklərin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizənin əlaqələndirilməsi üzrə struktur bölməsinin və onun regional əməliyyat qrupunun yaradılması barədə**

**QƏRA R**

Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurası

Müstəqil Dövlətlər Birliyinin 2002 -2004-cü illər ərzində narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə üzrə Proqramının 2.1-ci bəndinə uyğun olaraq,

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ərazisində Mütəşəkkil cinayətkarlıq və digər təhlükəli cinayət növləri ilə mübarizənin əlaqələndirilməsi üzrə Büronun tərkibində Mərkəzi Asiya regionunda narkotiklərin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizənin əlaqələndirilməsi üzrə struktur bölməsinin və onun regional əməliyyat qrupunun yaradılması məqsədilə **qərara aldı:**

1. Müstəqil Dövlətlər Birliyi orqanlarının fəaliyyətinin səmərəliliyini daha da artırmaq və onların strukturlarını optimallaşdırmaq tədbirləri haqqında Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının 2002-ci il 7 oktyabr tarixli Qərarının 6-cı bəndi dəyişdirilərək, Birliyin iştirakçısı olan dövlətlərin büdcə vəsaitləri hesabına maliyyələşdirilən MDB orqanlarının işçi heyətinin sayı 2005-ci il yanvarın 1-dən aşağıdakı kimi müəyyən edilsin:

| | |
|---|---|
| Müstəqil Dövlətlər Birliyinin Dövlətlərarası Statistika Komitəsi - | 73 nəfər, |
| Sərhəd Qoşunları Komandanları Şurasının Əlaqələndirmə Xidməti - | 47 nəfər, |
| Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ərazisində Mütəşəkkil cinayətkarlıq və digər təhlükəli cinayət növləri ilə mübarizənin əlaqələndirilməsi üzrə Büro - | 49 nəfər |

2. Müstəqil Dövlətlər Birliyinin Hökumət Başçıları Şurasına tapşırılsın ki, Vətən müdafiəçilərinin xatirəsinin əbədiləşdirilməsi üzrə Dövlətlərarası Koordinasiya Mərkəzi müəyyən olunmuş qaydada 2005-ci il iyunun 1-dən ləğv edilsin və onun funksiyaları Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsinə həvalə olunsun.

3. Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasına tapşırılsın ki:

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ərazisində Mütəşəkkil

cinayətkarlıq və digər təhlükəli cinayət növləri ilə mübarizənin əlaqələndirilməsi

üzrə Büronun tərkibində Mərkəzi Asiya regionunda narkotiklərin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizənin əlaqələndirilməsi üzrə struktur bölməsini və onun regional əməliyyat qrupunu yaratsın, onların işini təşkil etsin;

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ərazisində Mütəşəkkil cinayətkarlıq və digər təhlükəli cinayət növləri ilə mübarizənin əlaqələndirilməsi üzrə Büro haqqında Əsasnaməni yeni redaksiyada hazırlayaraq, müəyyən olunmuş qaydada Müstəqil Dövlətlər Birliyinin Hökumət Başçıları Şurasının təsdiqinə versin.

4. Mərkəzi Asiya regionunda regional əməliyyat qrupunun Tacikistan Respublikası, Düşənbə şəhərində yerləşdirilməsi müəyyənləşdirilsin.

5. Bu Qərar imzalandığı gündən qüvvəyə minir, qanunvericiliyində onun qüvvəyə minməsi üçün dövlətdaxili prosedurların yerinə yetirilməsi tələb olunan dövlətlər üçün isə depozitariyə müvafiq məlumatın verildiyi gündən qüvvəyə minir.

2004-cü il sentyabrın 16-da Astana şəhərində bir əsl nüsxədə rus dilində imzalanmışdır. Əsl nüsxə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsində saxlanılır, İcraiyyə Komitəsi Qərarı imzalayan hər bir dövlətə onun təsdiq edilmiş surətini göndərəcəkdir.

**Azərbaycan Respublikası**
**adından**
*(imza)*

**Ermənistan Respublikası**
**adından**
*(imza)*

**Belarus Respublikası**
**adından**
*(imza)*

**Gürcüstan adından**

—

**Qazaxıstan Respublikası**
**adından**
*(imza)*

**Qırğızıstan Respublikası**
**adından**
*(imza)*

**Moldova Respublikası**
**adından**
*(imza)*

**Rusiya Federasiyası**
**adından**
*(imza)*

**Tacikistan Respublikası**
**adından**
*(imza)*

**Türkmənistan adından**

—

**Özbəkistan Respublikası**
**adından**
*(imza)*

**Ukrayna adından**

*(imza)*

**“Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ərazisində mütəşəkkil cinayətkarlıq və digər təhlükəli cinayət növləri ilə mübarizənin əlaqələndirilməsi üzrə Büronun tərkibində Mərkəzi Asiya regionunda narkotiklərin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizənin əlaqələndirilməsi üzrə struktur bölməsinin və onun regional əməliyyat qrupunun yaradılması barədə Qərar”a dair Azərbaycan Respublikasının**

## QEYD-ŞƏRTİ

16 sentyabr 2004-cü il Astana şəhəri

“maliyyə imkanları nəzərə alınmaqla”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**